# AZƏRBAYCAN RESPUBLİKASININ
# ENERGETİKA NAZİRLİYİ

## ƏMR

№ 42

**Bakı şəhəri** "15" dekabr 2017 il

**"Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Energetika Nazirliyinin 2017-ci il 10 noyabr tarixli 38 nömrəli əmrində dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"nin (bundan sonra - Strateji Yol Xəritəsi) icrasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Energetika Nazirliyinin 2017-ci il 10 noyabr tarixli 38 nömrəli əmrinin 1-ci bəndində İşçi Qrupunun üzvləri hissəsində "Yaşar Lətifov - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Yataqların işlənməsi üzrə vitse-prezidenti" və "Bəhram Hüseynov - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Geologiya və geofizika məsələləri üzrə vitse-prezidenti" sözləri "Yaşar Rəcəbov - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Baş Ofisinin Qazın yığılması və nəqli şöbəsinin böyük mühəndisi" və "Ruslan Əliyev - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İB-nin Baş direktorunun satış və istismar üzrə müavini" sözləri ilə əvəz edilsin.

2. Ümumi şöbə (E. Rzayeva) bu əmrin surətini Nazirliyin şöbələrinə və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə çatdırılmasını təmin etsin.

3. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** *Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin 2017-ci il 01 dekabr tarixli SOCAR171000021630251613X00045 nömrəli məktubu.*

**Nazir** **Pərviz Şahbazov**